# 11-ci sinifdə “Davamlı inkişaf” mövzusu üzrə fəal dərsin təşkili

**Sevinc Asif qızı Nəsirova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** nesirovasevinc20@gmail.com

**Rəyçilər:** p.ü.f.d., D.M. Ələsgərov,
p.ü.f.d., dos. O.K. Alxasov

**Açar sözlər:** davamlı inkişaf, sosial fəsadlar, iqtisadi fəsadlar, ekoloji fəsadlar, fəal dərs
**Ключевые слова:** устойчивое развитие, социальные осложнения, экономические осложнения, экологические осложнения, активный урок
**Key words:** sustainable development, social complications, economic complications, ecological complications, active lesson

"İnkişaf" sözünün mənası daim hərəkətdə olan, bir vəziyyətdən digərinə, keyfiyyətcə daha təkmil vəziyyətə keçməkdir. Davamlı inkişaf termin kimi ilk dəfə 1972-ci ildə ətraf mühit və inkişafa həsr olunmuş konfransda səslənmişdir. 1992-ci ildə "Davamlı inkişaf" konsepsiyası qəbul edilmişdir. Terminoloji cəhətdən davamlı inkişaf cəmiyyətin davamlı, uzunmüddətli, fasiləsiz eyni zamanda sabit inkişafının təmin olunması kimi başa düşülür. Davamlı inkişaf bəşəriyyətin müasir, bizdən sonrakı nəsillərin tələblərini ödəyən, onların imkanlarını inkişaf etdirən, insan potensialı və kapitalını, həmçinin ətraf mühitin mühafizəsini və yaxşılaşdırılmasını nəzərdə tutan bir nəzəriyyədir. Bu biliklərin formalaşması davamlı inkişafın məqsədlərinə nail olunması baxımından olduqca əhəmiyyətlidir.

"Davamlı İnkişaf" mövzusu üzrə fəal dərsi aşağıdakı formada təşkil etmək olar:

**Mövzu:** "Davamlı İnkişaf"

**Alt standart:** 3.2.5 Cəmiyyətin sosial-iqtisadi inkişafıda ekoloji tarazlığın qorunmasını proqnozlaşdırır.

**Təlim nəticəsi:** 1) "Davamlı inkişaf" anlayışının mahiyyətini izah edir.
2) davamlı inkişafın tənzimlənməsində öz rolunu izah edir.

**Təlim forması:** kollektiv, qrup

**Təlim üsulu:** müzakirə

**Resurslar:** 11-ci sinif dərslik, qrup işi üçün paylama materialları.

**İnteqrasiya:** 10-cu sinif. 1. Dünyanın siyasi münaqişə regionları.
2. Qlobal ekoloji problemlər.

**Dərsin gedişi:** Motivasiya.

Elektron lövhədə “Davamlı inkişaf”a aid 2, 5 dəqiqəlik video nümayiş etdirilir. https: //youtu.be/BhkKT8SwlVU Video rus dilində olduğundan müəllim videonu səssiz nümayiş etdirib, videodakı məlumatları şagirdlərə özü çatdırır və şagirdlərdən video barədə fikirlərini soruşur. Şagirdlərin fərziyyələri dinlənir və tədqiqat sualı elan olunur.

**Tədqiqat sualı:** Davamlı inkişafı təmin etmək üçün hansı tədbirlər görülür?

**Tədqiqatın aparılması:** Sinfi qruplara bölüb, hər bir qrupa paylama materialları verilir.

**1-ci qrup**

1. Çernobıl AES-də qəzanın səbəb-nəticə əlaqələrini qeyd edin.

| Çernobıl AES-də qəza | |
|---|---|
| **Səbəb** → | **Nəticə** |
| İstehsal sahələrinin fəaliyyəti dayandırıldı | İşsizlik yarandı |
| Radioaktiv şüalanma xəstəliklərinin yaranması | Əhali ekoloji miqrasiyaya məruz qaldı |

2. Davamlı inkişafa mane olan sosial-iqtisadi, ekoloji amilləri qeyd edin.

| **Sosial iqtisadi amillər** | **Ekoloji amillər** |
|---|---|
| Yoxsulluq | Litosfer mənşəli təbii fəlakətlər |
| Müharibə | Hidrosfer mənşəli təbiİ fəlakətlər |
| Terroriz | Atmosfer mənşəli təbii fəlakətlər (ozon təbəqəsi, turşulu yağışlar) |

3. Dağlıq Qarabağ münaqişəsi nəticəsində yaranan iqtisadi, sosial, ekoloji fəsadları qeyd edin!

| **İqtisadi fəsadları** | **Sosial fəsadları** | **Ekoloji fəsadları** |
|---|---|---|
| Sənaye obyektləri dağıdılıb | İnsanlar həlak olub | Meşələr qırılır |
| ÜDM azalıb | Əhali yaşayış yerlərini itirib | Torpaqlar münbitliyini itirib |
| Təbii sərvətlər itirilib | Kütləvi miqrasiya baş verib | Bitki örtüyü məhv olub |
| İş yerlərinin çatışmazlığı | | Çayların çirklənməsi |

**2-ci qrup**

1. Davamlı inkişafa nail olmaq üçün yollar və bunun üçün görülən tədbirləri cədvəldə qeyd edin.

| **Davamlı inkişafa nail olmaq üçün yollar** | **Görülən tədbirlər** |
|---|---|
| İstehsal potensialının təşkili | Kooperativləşmə, təmərküzləşmə, kombinələşmə |
| Kadr potensialından istifadə | Kadrların ixtisasının artırılması, yeni iş yerləri yaradılır |
| Yeni texnika və texnologiyanın tətbiqi | Kompüterləşmə, avtomatlaşma, kosmikləşmə |
| Ekoloji şəraitin qorunub saxlanması | Aztullantılı və tullantısız texnologiyaların tətbiqi |
| Təbii ehtiyatlardan səmərəli istifadə | Yeni süni materialların tətbiqi, alternativ mənbələrdən istifadə |

2. Avstraliyada baş verən meşə yanğınlarının iqtisadi, sosial, ekoloji fəsadlarını qeyd edin.

| İqtisadi fəsadları | Sosial fəsadları | Ekoloji fəsadları |
|---|---|---|
| Sənaye təyinatlı meşələrdə oduncaq əhəmiyyəti ağaclar məhv olur | Heyvan və quşlar daimi yaşayış yerlərindən məhrum olması | Temperatur artır |
| | Xəstəliklər artır. | Bitki örtüyü məhv olur |
| | Yaşayış yerləri itirilir | Quraqlıq, Səhralaşma yaranır |
| | | Meşənin torpaq və suqoru-yucu funksiyası zəifləyir. |

3. Ukraynada Çernobıl AES-də baş verən qəza nəticəsində yaranan ekoloji böhran üçün məntiqi ardıcıllığı tamamlayın.

Çernobıl AES.də qəza baş verdi → İstehsal sahələrinin fəaliyyəti dayandırıldı → İşsizlik yarandı → Əhali miqrasiyaya məruz qaldı.

**Məlumat mübadiləsi:** Vaxt bitdikdən sonra hər bir qrup öz işini təqdim edir.

**Məlumat müzakirəsi:** Qruplar dinlədikdən sonra əldə olunmuş məlumatların müzakirəsi aparılır və digər qrup üzvləri öz əlavələrini qeyd edirlər, suallarını verirlər.

**Nəticə və ümumiləşdirmə:** Bütün cavablar dinlədikdən sonra əldə olunmuş biliklər sistemləşdirilir və nəticə çıxarılır.

**Yaradıcı tətbiqetmə:** "Davamlı inkişafı necə təmin etmək olar" mövzusunda təqdimat

**Refleksiya:** 1. Azərbaycanda davamlı inkişafa mane olan amillər hansılardır?

2. Davamlı inkişafı təmin etmək üçün hansı tədbirlər görülür?

3. Davamlı İnkişafın məqsədləri nədir?

**Qiymətləndirmə:** Dərsin sonunda fəal şagirdlər meyarlara uyğun olaraq fərdi qiymətləndirilir.

**Məqalənin aktuallığı.** Davamlı inkişaf bəşəriyyətin müasir, bizdən sonrakı nəsillərin tələblərini ödəyən, insan potensialı və kapitalını, həmçinin ətraf mühitin mühafizəsinə və yaxşılaşdırılmasına yönələn bir nəzəriyyədir. Bu kimi biliklərin formalaşması davamlı inkişafın məqsədlərinə nail olunması baxımından olduqca əhəmiyyətlidir. Məqalə də məhz bu mövzuya həsr edildiyindən onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə 11-ci sinifdə "Davamlı inkişaf" mövzusu üzrə fəal dərsin əvvəlcədən müəyyənləşdirilmiş forma və ayrı-ayrı qruplar üzrə təşkilinin bütün istiqamətlərinin təsnifatı verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilər.

## Ədəbiyyat

1. Əsgərov Ə, Hüseynov E, Hüseynov S. Davamlı insan inkişafı: Ali məktəblər üçün dərslik. Bakı, 2009.

2. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün “Coğrafiya” fənni üzrə metodik vəsait. Bakı, 2018.

3. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün “Coğrafiya” fənni üzrə dərslik. Bakı, 2018.

**С.А. Насирова**

## Организация активного урока “Устойчивое развитие” в 11 классе


### Резюме

Суть устойчивого развития состоять из экономического развития, которое способно удовлетворить требования нынешнего поколения и не препятствует потребностям будущего поколения. Эти требования могут быть выполнены только путем защиты окружающей среды, эффективного использования энергоресурсов и природных ресурсов, а также путем создания новых технологий. Социальное развитие, экономическое развитие, экологическое развитие – это трио формируют модель устойчивого развития.


**S.A. Nasirova**

## Organization of an active lesson on “Sustainable Development” in 11th grade


### Summary

The essence of sustainable development consists of economic development which is able to meet the demands of the current generation and does not impede the requirements of the future generation. These demands can only be carried out by protecting the environment, efficient using energy resources and natural resources, as well as by creating new technologies. Social development, economic development, ecological development – this trio form the Sustainable Development model.


**Redaksiyaya daxil olub:** 20.10.2020